# *Alparslan BAYRAKTAR:* "Ankara xarici tərəfdaşlarla enerji əməkdaşlığını genişləndirmək niyyətindədir"

**"Türkiyə xarici tərəfdaşlarla enerji sahəsində əməkdaşlığı genişləndirmək və Azərbaycan, İraq, Rusiya, Liviya və Pakistanla yeni layihələr həyata keçirmək niyyətindədir. Xəzər regionunda enerji diplomatiyası sahəsində fəal addımlar atırıq. Biz qarşılıqlı faydalı əməkdaşlığa və digər ölkələrin iqtisadi inkişafına töhfə verməyə çalışırıq".**



AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyənin enerji və təbii sərvətlər naziri Alparslan Bayraktar yerli telekanallardan birində deyib.

Onun sözlərinə görə, Ankara qarşısına tam enerji müstəqilliyinə nail olmaq məqsədini qoyur.

Energetika Nazirliyinin rəhbəri xatırladıb ki, Türkiyə 2017-ci ildən başlayaraq ölkənin mineral ehtiyatlarının işlənməsinə yönəlmiş yeni enerji siyasəti həyata keçirir. "Bu məqsədlə yerli kadrlardan və imkanlardan istifadə edirik, qazma donanmasını artırırıq. Enerji idxalından asılılığı minimuma endirmək üçün əlimizdən gələni edirik", - deyən Bayraktar Ankaranın enerji siyasətinin uğurlarından biri kimi 2020-ci ildə Qara dənizin türk sektorunda Türkiyə tarixində ən böyük "Sakarya" yatağının kəşfini göstərib.

O qeyd edib ki, Qara dənizdən gələn "mavi yanacaq" Türkiyənin qazpaylayıcı sisteminə dəniz sahilindən 170 kilometr aralıda ehtiyatlar aşkar edildikdən cəmi 3 il sonra axmağa başlayıb.

Nazir bildirib ki, 2028-ci ilə qədər Qara dənizdə qaz hasilatının həcminin 4 dəfə artırılması planlaşdırılır. O əlavə edib: "Bundan başqa, artıq cari ay ərzində Ankara Qara dənizdə yeni ehtiyatların aşkarlandığını elan edə bilər".

A.Bayraktar, həmçinin bərpaolunan enerji mənbələrindən (RES) istifadə etməklə enerji potensialının inkişaf etdirilməsi səylərinə diqqət çəkib.

O qeyd edib ki, Türkiyə günəş və külək enerjisindən istifadə baxımından dünyada 11-ci yerdədir. Nazir vurğulayıb: "2035-ci ilə qədər Külək və Günəş-Elektrik stansiyalarının gücünü 120 min MVt-a çatdırmağı planlaşdırırıq. Biz dənizdə Külək Elektrik stansiyaları layihələrini həyata keçiririk".

Energetika Nazirliyinin rəhbəri, həmçinin Türkiyənin cənubunda yerləşən Mersin vilayətindəki "Akkuyu" atom elektrik stansiyasının 2028-ci ildə istifadəyə veriləcəyini açıqlayıb.

Azərbaycan.- 2025.- 4 may (№ 90).- S.7.